Ədəbiyyat qəzeti

# Xalq yazıçısı Anarın Türkiyədə keçirilən yubiley tədbirləri TÜRKSOY-da yekunlaşıb



Mayın 3-də Türk dünyası Beynəlxalq Mədəniyyət təşkilatı olan TÜRKSOY-da Xalq yazıçısı Anarın 85 illik yubileyi münasibətiylə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan TÜRKSOY-un sədri Sultan Rayev Türk dünyasının önəmli şəxsiyyətlərindən biri olan Anarın şərəfinə tədbir düzənləndiyi üçün məmnunluğunu dilə gətirib: "Bu gün TÜRKSOY-a bir nur, ülvi bir söz ustası, hikmet dolu fikirlər sahibi ve kübar bir ziyalı gəlib desəm, yanılmaram! O, Anardır! Anar, hər şeyden önce bizim üçün özəl bir dəyər ve özəl bir istedad sahibi olan insandır! Hər millətin ruhuna çevrilmiş ve millətin simvolu olan insanlar vardır. Mən Anarı belə bir əsilzadə insan olaraq tanıyıram.

Millətin siması, millətin qüruru və millətin mənəvi lideri kimi böyük sözler, Anar ustada yaraşır. Çünki onun həyatı ve taleyi, həyata baxışı və vətənsevərliyi bunun açıq sübutudur.

Yazıçılıq və vətənsevərlik! Bu iki qutsal kəlmə Anar müəllimin təbiətində əks olunub! Onun qələmə aldığı romanları ve öyküləri insanoğlunu təmizliyə; mənəvi paklığa və insanın daxilindəki məninə dönməsinə dəvət edir. Şərtlər nə olursa olsun, "İnsan" adını qutsal və uca tutmağa sövq edir!"

Türk Ədəbiyyatı Vaqfının sədri, şair Sərhat Kabaklı Anarın türk dünyasının ortaq dəyəri olduğunu söyləyib: "Bir neçə gündür ki, İstanbuldan başlayan yubiley tədbirləri burda Ankarada, TÜRKSOY binasında davam edir və mən bu günlərdə son dərəcə xoşbəxtəm. Çünki gerçək mənəvi dəyərləri nə qədər çox təbliğ etsək, dünyamız o qədər gözəl olar. Əzizimiz Anar ustad 90, 95, 100 yaşını da bizlərlə qeyd edəcəyinə söz verib. Ona cansağlığı, yeni yaradıcılıq uğurları diləyirəm".

Daha sonra söz Mətbuat şurasının sədri, AYB-nin sədr müavini Rəşad Məcidə verilib. Rəşad Məcid yazıçının əsərlərinin nəsilnəsil oxucularda vətənpərvərlik duyğusunun aşılanmasına, türklüyün, milli kimliyin dərkinə səbəb olduğunu söyləyib: "Anar müəllim türklüyümüzün təbliğatı üçün bir çox işlər görüb. O, türk dünyasını bir bütün olaraq görüb, hər zaman və bunu müxtəlif üsullarla, yazdığı əsərlər, kino ssenariləri, tərtib etdiyi şeir antologiyaları ilə oxucusuna da çatdırıb. Onun türk dünyası qarşısında böyük xidmətlərindən biri də TÜRKSOY kimi təşkilatın yaranmasının ideya müəllifi olmasıdır. Mən bütün təşkilatçılara, Türk Ədəbiyyatı Vaqfına, başda Sərhat Kabaklı, TÜRKSOY-a başda Sultan Rayev, təşkilatın Azərbaycan nümayəndəsi Elçin Qafarlı olmaqla Azərbaycana, ədəbiyyatımıza və Anar müəllimə bu sayğı və diqqətə görə təşəkkür edirəm".

Azərbaycanın Türkiyədəki səfirliyinin əməkdaşı Eldar Əliyev Xalq yazıçısı Anarın yaradıcılığını uşaqlıqdan mütaliə etdiyini bildirib: "Anar müəllim Azərbaycanda çox tanınan və sevilən altmışıncılar nəslinin ən parlaq nümayəndələrindəndir. Onun əsərləri bizlərin yetişməsində, oxucunun formalaşmasında müstəsna rol oynayıb".

Sonra TÜRKSOY sədri Sultan Rayev Türk Ədəbiyyatı Vaqfının nəşrləri olan Pərvin Nurəliyevanın müəllifi olduğu "Çağının önündə bir yazar" kitabını və İmdat Avşarın tərtib etdiyi "İki əsrin qovşağında bir yazar" antologiyasını yazıçıya təqdim edib, kitablar haqqında çıxışlar edilib.



Türk yazıçı-tərcüməçisi, AYB-nin Türkiyə təmsilçisi İmdat Avşar bu kitabların Türk Ədəbiyyatı Vaqfının ustadın yubileyinə töhfəsi olduğunu və bu adların təsadüfi olmadığını dilə gətirib: "TƏV başqanı Sərhat bəy Azərbaycanla, özəlliklə Anar müəllimlə, Yazıçılar Birliyi ilə bağlı hər bir təşəbbüsümüzə böyük həssaslıq və diqqətlə yanaşır. Buna görə ona minnətdarlığımız sonsuzdur. Pərvin xanımla birlikdə bu kitabları nəşrə hazırlayanda ad üzərində çox düşündük və bu adlar təsadüfən seçilmədi. Çünki Anar ustad həqiqətən həm fərqli zamanlarda yaşayıb yaratmağı, çağın oxucusunun arzu və gözləntilərinə cavab verməyi bacarıb, həm də öz zamanını aşıb və gələcəyin oxucusuna xitab edə bilib. Buna görə də hələ yüz-yüz illər türk oxucusu onun əsərlərini mütaliə edəcək, ondan öyrənəcək".

Təqdim edilən kitablardan birinin müəllifi Pərvin Nurəliyeva isə ustad haqqında yazdığı dördüncü kitabı təqdim edilsə də, bu yolda görəcəyi işlərin hələ çox olduğunu söyləyib: "Neçə gündür ki, İstanbulda, Ankarada tədbirlərdə Anar müəllim haqqında çıxışları dinləyirəm, bu gün TÜRKSOY-da kitabın təqdim edilməsindən qürur duyuram, amma bütün bu günlər ərzində düşünürəm ki, hələ nə qədər yazılmayan, təhlilini gözləyən məqamlar var. Ustadımın fəaliyyəti, əsərləri ilə bağlı. İndi hal-hazırda Anar müəllim haqda beşinci kitabımı çapa hazırlayıram, amma qarşıda uzun bir yol görünür. Beş il öncə bu mövzuda dissertasiyamı müdafiə edəndə Anar müəllimə demişdim ki, bununla bitmir, ardı var. Bu beş ildə onlarla kitabına ön söz yazdım, iki kitab işıq üzü gördü. İndi də sizlərin qarşısında bu sözü deyirəm - Anar müəllim, ardı var, siz yaşayın - yaradın!"

Bakı Kitab Mərkəzinin rəhbəri, yazıçı Günel Anarqızı ailə adından minnətdarlığını dilə gətirib: "Mən ailəmiz adından bu günlərdə baş tutan tədbirlərdə əməyi keçən hər kəsə təşəkkür edirəm. Bu, həqiqətən atama və onun yaradıcılığına verilən böyük dəyərdir. Mən də, qardaşım da bu gün onun yolunu davam etdiririk və mən tez-tez uşaqlığımı yada salıb anlayıram ki, valideynlərim - anam, Akademik Zemfira Səfərova və atam Xalq yazıçısı Anar öz ailələrindən gələn ləyaqəti, vətənpərvərlik duyğusunu bizə ötürüblər. Bizim də vəzifəmiz bu dəyərləri gələcək nəsillərə ötürməkdir".

Daha sonra tədbirə Ankaradan qatılan, böyük Rəfibəylilər nəslinin Türkiyədə yaşayan nümayəndəsi Nəsrin Ünal çıxış edib: "Azərbaycanda Sovetlər qurulandan sonra Rəfibəylilərin bir neçəsi ölkədən qaçmağa məcbur oldu. Türkiyəyə sığındılar. Ta 60-cı illərə qədər heç bir əlaqə yox idi və mən uşaq ağlımla da dərk edirdim ki, burada qalan əqrəbalarımız üçün tək təsəlli Rəsul Rzanın və Nigar xanımın şeirləridir. Sonralar görüşmələrini də Nigar xanımın qardaşı ilə KQB nəzarətini bildiyi üçün necə məsafəli davranmasını da unutmuram. O zaman Rəsulla Nigarın böyük sevgisini, bir-birinə qayğısını hiss edirdim. Anar da bu böyük sevginin nəticəsidir".



Tədbirin bədii hissəsində Təbrizli gənc müğənni Aynaz Rəhimzadə Rəsul Rzanın, Nigar Rəfibəylinin sözlərinə bəstələnmiş mahnıları ifa ediblər. "Şuşanın dağları" mahnısı məclisin sonunda xüsusi coşğu ilə qarşılanıb.

Daha sonra TÜRKSOY sədri Sultan Rayev Anara "Türksoy 30 illik" medalını təqdim edib. Qeyd edək ki, daha öncə Özbəkistanda keçirilən ədəbi tədbirdə Anar TÜRKSOY "Altun medalya"sına layiq görülüb. Sonda Anar təşkilatçılara təşəkkürlərini bildirib: "Mənim qəlbim minnətdarlıq duyğusu ilə doludur. Bu günlərdə zəhmət çəkən bütün Türkiyəli dostlarıma, Türk ədəbiyyatı Vaqfı



və TÜRKSOY-a, Azərbaycandan mənimlə gələn ailəmə, dostlarıma minnətdaram. Çalışacam verdiyim sözü tutum və 90 illiyimi də sizlərlə bərabər qeyd edim".

Sonda iştirakçılara diplomlar təqdim edilib, xatirə şəkli çəkilib.

Qeyd edək ki, Xalq yazıçısı Anarın bu günlərdə Türkiyədə baş tutan bir neçə yubiley tədbiri türk mətbuatında geniş işıqlandırılıb. Bir neçə dərgi və qəzetdə tədbirlər haqda geniş məqalələr yayımlanıb. "Türkiyə" qəzetinin Kültür-Sənət səhifəsində yazıçının "Türkiyə türkçəsi ortaq dilimiz olmalıdır" başlıqlı müsahibəsi yayımlanıb. Həmçinin yazıçı Türkiyə televiziyalarına da müsahibələr verib.

